# Aqrar Sahənin Sosial-İqtisadi İnkişafinda Məqsədli Proqramlarin Rolu

**Nailə Eyvazova***

## *Xülasə*

*Son vaxtlar Azərbaycan Respublikasında aqrar sektorun inkişafını təmin edən prioritetlərin səmərəliliyini qiymətləndirir və ölkə iqtisadiyyatında Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının əsasında əhalinin ərzaq təminatının, ölkənin ixrac potensalının yüksəlməsində müasir aqrobiznesin rolunu açıqlayır və sosial- iqtisadi əhəmiyyətini göstərir.*

***Açar sözlər:*** *Prioritet, Kapital qoyuluşu, İnvestor, İnvestisiya, İnnovasiya, Aqrarbiznes*

# Роль целевых программ в социально-экономическом развитии аграрной отрасли

**Nailə Eyvazova**

## *РЕЗЮМЕ*

*Увеличение достижений вразвитии аграрного сектора, ведующий роль,принадлежит Государственным Программам социально-экономического развития регионов Азербайджана. В статье изучен опыт зарубежных стран, и автор, отценивая роль государственных приоритетов, обеспечивающих ускоренное, развитие сельсого хозяйства в создании аграрного бизнеса, обезпечении продовольственной программы республики и увеличении экспортного потенциала страны дает соответствующие предложения*

***Ключевые слова***: *приоритеты, капитальное вложение, инвестиция, качество, инновация, аграрный бизнес*

* *Doç. Dr., Azərbaycan Dövlət İqtisad Universiteti Nəzəriyyə və Praktik İqtisadiyyat Kafedrası, eyvazova_71@mail.ru*

*Akademik Tarih ve Düşünce Dergisi* *Academıc Journal of History and Idea*
*Cilt:IV/Sayı:XI/Mayıs /MMXVII* **ISSN:2148-2292.** *Volume:IV/Number:XI/May/MMXVII*
*АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ*

# Role of objective projects in socio-economic development of an agrarian department

**Nailə Eyvazova***

## *Abstract*

*Assesses the effectiveness of the priorities that ensure the development of agrarian sector in Azerbaijan in recent years and sheds light on the role and social-economic significance of the modern agrarian business in increasing the food supply of the population and boosting the export potential of the country, based on the programmes on the social and economic development of the regions.*

*Keywords: Priorities, Capital investment, İnvestor, İnvestment, Agrarian Business*



* *Doç. Dr., Azerbaıjan State University,* hummatovax@mail.ru

## Giriş

Müstəqillik illərində qəbul olunmuş məqsədli dövlət proqramları ölkənin aqrar sahəsində qeyri-neft sektorunun inkişafının sürətləndirilməsini, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa nail olmağa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmağa, emal sənayesində keyfiyyətli, rəqabət qabiliyyətli məhsul istehsalına, ixrac yönümlü məhsulların istehsalına, mövcud bazarla yanaşı Avropa ölkələri bazarlarına çıxmağa şərait yaratdı. Məqsədli dövlət proqramlarında nəzərdə tutulmuş hər bir tədbirin, tikiləsi obyektin konkret ünvanı, icrasına məsul təşkilat və maliyyə təminatı göstərildi.

Bazar iqtisadiyyatı əməyin, əmtəə və kapitalın, xidmətlərin ölkə daxilində və xaricdə hərəkətini sərbəstləşdirmişdir. İşçi qüvvəsi daha yüksək əmək haqqı verən sahibkarla əməkdaşlıq etməyə can atır. Yüksək rəqabətqabiliyyətli məhsullar (iş və xidmətlər) ölkədə sabitlik, təkmil bazar infrastrukturu, sağlam rəqabətli ölkəyə hərəkət edir. Kapital axını yuxarıda göstərilən əlamətlərə daha çox həssas olmaqla reytinqi yüksək olan inamlı, etibarlı dövlətlərə sərbəst və müdaxiləsiz hərəkət edir.

Kapitalın hərəkəti iqtisadiyyatın gəlirli sahələrinə daha çox axır. Bu baxımdan aqrar emal sektorunda köhnə primitiv texnologiyalardan imtina edərək, ən müasir beynəlxalq standartların tələblərinə cavab verən keyfiyyətli, rəqabətqabiliyyətli məhsul istehsal edən layihələrin son məhsulu daxili bazarda olduğu kimi xarici bazarlarda problemsiz qarşılanır. Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Bərdə, Ağcabədi, Qazax, Ağstafa və digər şəhər və rayonlarda istehsal olunmuş ət və süd, meyvə və tərəvəz məhsulları irişəhərləri pərakəndə ticarət obyektlərində öz alıcılarını gözləyir. İndi ərzaq məhsullarının istehsalçıları arasında keyfiyyətli məhsul istehsalı uğrunda rəqabət gedir.

Məqsədli dövlət proqraminin həyata kecirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətlənməsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, dövlətlərarası əlaqələrin genişləndirilməsi zərurliyi, milli iqtisadiyyatın bütün sahələrinin sahib inkişafının təmin edilməsini başlıca vəzifə kimi qarşıya qoyur. Məqsədli dövlət proqramlarinin qanunauyğunluqlarina əsasən ölkənin əsas istehsal sahələrindən biri olan aqrar sferanın da inkişaf etdirilməsini tələb olunur. Aqrar sferanın

inkişafı ölkədə əhalinin ərzaq və xalq istehlakı malları ilə tələbatının ödənilməsində, habelə ölkənin bir sıra sənaye sahələrinin xammala ehtiyacının təmin edilməsində həlledici əhəmiyyətə malikdir.Göstərilənlər nəzərə alınaraq Azərbaycan Respublikasında milli iqtisadiyyatın inkişaf etdirilməsi məqsədi ilə islahatların aparılması problemləri həll edilərkən aqrar sferada islahatların üstün aparılması nəzərdə tutulmuş və islahatlar ilk növbədə məqsədli dövlət proqramlari əsasinda həyata keçirilmişdir. Bununla əlaqədar olaraq aqrar islahatların aparılmasının normativ-hüquqi bazası yaradılmış, ictimai mülkiyyətə əsaslanan təsərrüfatlar qanunauyğun formada ləğv edilmiş, torpaq və əmlak özəlləşdirilmiş, xüsusi mülkiyyətə əsaslanan təsərrüfatlar yaradılmış və aqrar sahibkarlıq fəaliyyəti formalaşmışdır.Bunların təmin edilməsində respublikanın aqrar sferaında bazar iqtisadi münasibətlərinə tam uyğun, onun tələblərinə cavab verən qanunvericilik bazasının formalaşması həlledici rol oynamışdır. Göstərilənlərin nəticəsidir ki, Azərbaycanın aqrar sferasında bazar münasibətlərinə əsaslanan istehsal və xidmət sahələri yaradılmış, istehsalın artırılmasına, səmərəliliyin yüksəldilməsinə, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasını maddi marağın artırılmasına real şərait təmin edilmişdir.

Azərbaycanda aparılan islahatlarin məqsədli dövlət proqramlari vastəsi ilə həyata kecrilməsini xarakterik xüsusiyyətlərindən və üstünlüklərindən biri ondan ibarət olmuşdur ki, kənd təsərrüfatında torpaq sahələri ilə yanaşı bütün əmlak və texnika da özəlləşdirilərək sahibkarlara verilmiş və beləliklə onların səmərəli fəaliyyət göstərməsi üçün daha əlverişli imkanlar açılmışdır.Aqrar islahatların uğurla həyata keçirilməsi ilə əlaqədar olaraq qarşıda duran ən mühüm problemlərdən biri əmlakın özəlləşdirilməsinin səmərəli aparılması olmuşdur. Bu sahədə də ölkədə tələb olunan normativ-hüquqi baza yaradılmış və əmlak qarşıda qoyulan məqsədə uyğun formada özəlləşdirilmiş və sahibkarlara vermişdir. Son vaxtlar Azərbaycanda bazarın tələblərini ödəyən aqrar emal sənayesində yüksək gəlir gətirə bilən, mütərəqqi keyfiyyət və struktur dəyişilikləri yarada bilən iri miqyaslı kapital qoyuluşlu layihələrin həyata keçirilməsinə başlanmışdır. Reginların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq ölkədə ən yerli texnologiyalar əsasında tikilən və yenidən qurulan kənd təsərrüfatı məhsullarının emal müəssisələri iri miqyaslı kapital qoyuluşu ilə başa gəlir. Bu layihələrdə xarici investorlar, Sahibkarlığa Kömək Milli Fondu, Milli İnvestisiya Şirkəti, yerli iş adamları və s. ilə tərəfdaşlıq edirlər. Bu təcrübə göstərir ki,

Azərbaycan ölkə daxili və xarici investorlar üçün etibarlı tərəfdaş olmaqla yanaşı dünya ölkələri arasında reytinqi yüksək olan dövlətdir.İstehsalçıların hüquqlarının qorunması, əhalinin keyfiyyətli ərzaq, kənd təsərrüfatı məhsulları, məhsul və xidmətlərlə təminatı, istehlak bazarının təhlükəli və normativ dövlət sənədlərinin tələblərinə uyğun olmayan məhsullardan qorunması dövlət siyasətinin tərkib hissəsidir. 2016-cı ildə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməri tərəfindən 47 istehsal müəssisəsində yoxlama aparılmış, 20 sahibkarlıq subyektinə normativ sənədlərin tələblərinə cavab verməyən məhsul istehsal olunduğu üçün istehsal və satışın qadağan olunması barədə tələbnamə verilmişdir.

Son illərdə regionlarda tikilib istifadəyə verilmiş aqrar emal komplekslərinin təcrübəsi göstərir ki, qloballaşan dünya ərzaq təhlükəsizliyi çərçivəsində ixrac yönümlü qida məhsulunun istehsalına, sertifikatlaşdırmasına və dünya bazarlarına çıxarılmasına yeni texnologiya ilə işləyən Ağcabədidə “Atena” süd emalı şirkəti, Ağsuda “AzQranata” MMC, Qazaxda “Azərsun Holdinq” şirkətinin meyvə konserv zavodu, Ağstafa “Aqroservis” MMC kimi avropa ölkələrində istehsal olunmuş müasir zavod kompleksi lazımdır. Bu kompleksərin tikilib başa gəlməsi 50-60 milyon manatdan çox investisiya tələb olunur. Regionlarda fəaliyyət göstərən sahibkarların maliyyə imkanları məhduddur, kommersiya bank qurumları üçün yüksək məbləğdə kreditlərin verilməsi risklidir. Bunu nəzərə alaraq ikinci Dövlət Proqramında planlaşdırılmış kənd təsərrüfatı və aqrar sənaye obyektələrinin maliyyələşdirmə mənbələri sırasında əməkdaşlıq qaydasında dövlət büdcəsinin, xarici investorların, Sahibkarlığa Kömək Milli Fondunun, milli sərmayədarların, sahibkarların öz vəsaitlərindən istifadə olunması da istisna deyil. Aqrar sferada investisiya imkanlarının artması, aqrar bazarın keyfiyyətcə yeni mərhələyə qalxması, ölkənin ərzaq təminatında iqtisadi mexanizmlərdən səmərəli istifadə olunmasının rolunu göstərir.Hazırda iri həcmli investisiya layihələrinin həyata keçirilməsində kənd təsərrüfatının istehsal sahələrinin daxili və xarici bazarın tələbləri baxımından təhlil edilir, prioritet sahələr müəyyən edilir, rəqabət qabiliyyətli, yüksək səmərə verə biləcək sahələrin potensial imkanlarına uyğun olaraq kapital qoyuluşuna önəm yaradılır. Davamlı inkişafa aparan bu münasibətin böyük perspektivi və əhəmiyyəti ondadır ki, təsərrüfatlarda uzun müddətli inkişaf hədəfləri əldə

edir, işçilərin əmək haqları artır, əhalinin ərzaq təminatı artmaqla keyfiyyətcə yaxşılaşır, layihəyə sərf edilən vəsaitin səmərəli xərclənməsi təmin olunur.

Regionlarda dövlət və özəl maliyyə partnyorluğu əsasında yaradılan aqrar biznesin sürətli inkişafının sosial-iqtisadi əhəmiyyəti vardır:

1. Dayanıqlı istehsal mühiti yaranır, regionların inkişaf səviyyəsi tarazlaşır;
2. Əhali yerli keyfiyyətli ərzaq məhsulları ilə etibarlı olaraq təmin olunur;
3. Kənd təsərrüfatı məhsullarının istehsalçıları kəndli (fermer), ailə təsərrüfatları istehsal etdikləri məhsulları münasib qiymətə, müqavilə əsasında satmaq imkanı əldə edir, onların mənfəəti artır;
4. Regionlarda məşğulluq səviyyəsi yüksələrək kənd əhalisi daimi iş yeri ilə təmin olunur və yoxsulluq səviyyəsi aşağı düşür;
5. ÜDM həcmi artır, dövlət büdcəsinə əlavə gəlir daxil olur;
6. Yüksək keyfiyyətli, rəqabətədavamlı ixrac məhsullarının çeşid və kəmiyyəti artır;
7. Kənd yerlərində yüksək ixtisaslı mütəxəssis kadrlarr formalaşır;
8. Şəhər və kənd yerlərində yaradılmış istehsal və sosial infrastrukturlar qorunub saxlanılır.

Aqrar emal sənayesinin ən müasir innovasiya texnologiyaları əsasında inkişaf etdirilməsi dövlət tərəfindən dəstəklənir və müxtəlif iqtisadi tənzimləmə üsulu ilə inkişaf etdirilir ki, bunun da daxili və xarici bazarların davamlı olaraq yüksək keyfiyyətli yerli məhsullarla təmin olunması ilə yanaşı fermer, ailə təsərrüfatlarının il boyu işlə təmin olunmasında, müəəsisə ilə əmtəə-xammal istehsalçıları arasında səmərəli əməkdaşlıq mədəniyyətinin formalaşmasına xidmət edir.

Tarixən aqrar sahənin inkişaf səviyyəsindən asılı olaraq kənd təsərrüfatı, emal sənayesinin inkişafını təmin edə biləcək müxtəlif prioritetlərə önəm vermək dövlət siyasəti ilə tənzimlənir. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra aqrar sahədə ilk prioritet kimi torpaq islahatı aparmaq, bazar iqtisadiyyatına uyğun kəndli təsərrüfatlarının yaratmaq, onları iqtisadi metodlarla işləməsini təmin etmək, əhalinin ərzaq təminatını qorumaq və sahibkarlığı inkişaf etdirmək oldu.

Araşdırmalar göstərirdi ki, sonraki dövrlərdə də keçmişdən qalan problemlər kənd təsərrüfatının sürətli inkişaf etməsinə mane olur.[1]-[2]-[3] -[4]-[6]

Belə ki, təsərrüfatların maddi-texniki təminatı, maliyyə vəziyyəti, zəifdir. Ölkənin rayonları və regionlarının qeyri-bərabər inkişaf etməsi səbəbindən kəndlərdən şəhərlərə işçi qüvvəsinin axımı artırdı. Regionlarda aqrar sferanı inkişaf etdirmək üçün sosial və istehsal infrastrukturları çatışmırdı. Belə bir vəziyyətdə Dövlət başçısı cənab İlham Əliyev yenilikçi, şəxsiyyət olaraq, yeni kreativ ideya irəli çəkdi və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarını Prezident fərmanı ilə təsdiq etdi.[5]

Dövlət siyasətini dövlət dəstəyi ilə əsas prioritet inkişaf istiqamətləri olaraq əhalinin həyat səviyyəsini dahan da yaxşılaşdırmağa, ölkə iqtisadiyyatının, sahibkarlığın dinamik inkişafına nail olmaqdır.

Ölkə iqtisadiyyatının Dövlət Proqramı ilə idarə olunması makroiqtisadi sabitliyi və davamlı inkişafı təmin etməklə, iqtisadi rayonlar üzrə həyata keçiriləcək tədbirlərin adı, məqsədi, yerinə yetirilmə müddəti və icraçıların göstərilməsi mütəşəkkilliyi yüksəltmişdir. Plana daxil edilmiş tədbirlərin dəqiq və keyfiyyətlə yerinə yetirilməsinə dövlət başçısının nəzarətində olması icraçıların məsuliyyətini artırmışdır.

Dövlət Proqramının prioritet inkişaf istiqamətləri, əsas məqsədi: rayonların təbii-iqtisadi potensialından daha səmərəli istifadə etməklə regionların bərabər inkişafını, ölkə iqtisadiyyatını, infrastrukturları, aqrar sahədə kənd təsərrüfatını, emal sənayesini inkişaf etdirmək, təsərrüfatların maliyyə, maddi-texniki təminatını nizamlamaq, işsizliyin, yoxsulluğun səviyyəsini aşağı salmaq idi.

[1] Anar Famil oğlu Abbasov, Ərzaq təhlükəsizliyi, Bakı: Elm, 2007, s .602.

[2] Əhmədov İsa Vəli oğlu. Kənd təsərrüfatının idarə edilməsi. (dərslik) Bakı, Ozan, 2006, s. 880

[3] Qarayev İslam Şamil oğlu. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Ali məktəblər üçün dərslik Bakı: Nurlan, 2011, s .522.

[4] Qasımov Əbülfəz Cəbrayıl oğlu. Kənd təsərrüfatının iqtisadiyyatı,Ali məktəblər üçün dərslik. Rus dilindən tərcümə. Bakı, Elm, 2007.

[6] Salahov Sadiq Vəli oğlu. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri, Bakı,Elm, 2004, s. 504.

[5] İbrahimov E. R.İlham Əliyev və aqrar siyasət. Bakı, 2014.

**Ədəbiyyat**

ABBASOV, A.F, 2007,”Ərzaq təhlükəsizliyi”, monoqrafiya, Bakı.

ƏHMƏDOV, İ.V.,2006, Kənd təsərrüfatının idarə edilməsi. Ali məktəblər üçün dərslik,Bakı.

QARAYEV, İ.Ş.,2011,Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Ali məktəblər üçün dərslik ,Bakı.

QASIMOV,Ə.C.,2007, Kənd təsərrüfatının iqtisadiyyatı,Ali məktəblər üçün dərslik. Rus dilindən tərcümə,Bakı.

İBRAHIMOV, E. R., 2014, İlham Əliyev və aqrar siyasət, Bakı. SALAHOV,S.V., 2004,Aqrar sahənin dövlət tənzimlənməsi problemləri, Bakı.